**31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür**

# Həmrəyliyimizin təzahürü - birlik günümüz

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, bütün sahələrdə həmrəy, həmfikir, yekdil olmağımıza çağırış edən və birliyimizi, bir platformada birləşməyimizi təsdiqləyən gündür, sevincimizi də, kədərimizi də bir yerdə yaşamağa, zəfərimizi də, digər uğurlarımızı da bir-birimizlə bölüşməyə istiqamətləndirən gündür. Bir sözlə, bu, bizim - dünyanın bütün ölkələrində yaşayan həmvətənlərimizin birlik nümayiş etdirməsinin təzahürüdür.

Biz artıq bunu bilir və qürurla təkrar edirik ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün təsis olunması Ümumilli Liderimiz Heydər Əliyevin imzasına məxsusdur. Özü də, hələ 1991-ci ildə Heydər Əliyevin rəhbərliyi və müəllifliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi dünya azərbaycanlılarının həmrəyliyi gününün təsis edilməsi barədə qərar çıxarmışdı. 1993-cü ildə xalqın tələbi və təkidi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev səfər etdiyi bütün ölkələrdə azərbaycanlılarla görüşlər keçirmiş və onların birliyini inkişaf etdirmək, genişləndirmək, soydaşlarımızı səfərbər etmək istiqamətində məqsədyönlü siyasət həyata keçirmişdir.

"Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanı Heydər Əliyev 2002-ci il iyulun 5-də imzalamışdır. Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev milli diaspor hərəkatına, onun müasir tələblərə uyğun təşkilatlanmasına yeni bir təkan vermişdir. O, 12 aprel 2004-cü il tarixdə Avropa Azərbaycanlıları Konqresinin təsis konfransının iştirakçılarına müraciətində demişdi: "Biz Azərbaycan diasporunun, icmalarının təşkilatlanması və fəaliyyətini, Vətənlə əlaqələrini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindəyik. Bunun üçün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar daha sıx birləşməli, mütəşəkkil, dinamik daxili strukturu olan birlik kimi çıxış etməlidirlər..."




Bu gün dünyada həmvətənlərimizin yaşamadığı bir ölkə tapmaq çətin məsələdir. Onlar yaşadıqları ölkələrdə diaspor təşkilatları yaradır və bu cəmiyyətlər ətrafında birləşib məmləkətimizin, xalqımızın qürbət ellərdə daha geniş formatda tanınması naminə irimiqyaslı iş aparırlar. Bu qəbildən, müxtəlif dillərdə qədim tarixə malik Azərbaycan-Qarabağ həqiqətlərini, zəngin milli - mənəvi dəyərlərimizi əks etdirən kitablar nəşr etdirir, qəzet, jurnal təsis edir, milli və dövlət bayramlarımızı, yaşadıqları ölkələrin dövlət, ictimaiyyət nümayəndələrinin, mədəniyyət xadimlərinin, başqa milli diaspor təşkilatlarının rəhbərlərinin və fəallarının iştirakı ilə, təntənəli surətdə qeyd edir, bu barədə yerli və mərkəzi mətbuatda məqalələr dərc olunur.

Dünyada ən böyük ərazisi olan şimal qonşumuz Rusiya Federasiyası soydaşlarımızın ən çox sayda yaşadığı ölkələrdən biridir. Təbii ki, burda diaspor təşkilatlarımız da çoxdur. Demək olar ki, Rusiyanın 89 subyektinin hər birində azərbaycanlıların milli diaspor təşkilatları mövcuddur və onlar geniş fəaliyyət göstərirlər. Bu yazıda qonşu ölkədə yaradılan mətbuat vasitələrindən söhbət açmaq, xüsusilə də, təsis olunan dərgilər vasitəsilə Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti, azərbaycançılıq ideyalarını təbliğ, təşviq etmələrini, qısa da olsa, oxucularla bölüşmək istəyirəm. Axı mənim də gəncliyimin on beş ili bu ölkədə keçib, burda bir neçə təhsil almış, on beş ilə yaxın hüquq sistemində xidmət etmişəm, əvvəllər də vurğuladığım kimi, uzun illər boyu şəhər-şəhər, bölgə-bölgə gəzib axtarışlar, araşdırmalar aparmış, topladığım materialları sistemləşdirib publisistik və elmi əsərlər yazıb, nəşr etdirmişəm.

Sevindirici haldır ki, Rusiya paytaxtında və bölgələrində - Dərbənddən Murmanska, Kalininqraddan Vladivastoka kimi yerləşən ən ucqar və müxtəlif şəhərlərdə - 1989-cu ildən günümüzə kimi altmışdan artıq adda diaspor mətbuat nümunələri çap etdirilir və yayımlanır. Təbii ki, son illərdə sosial şəbəkələrin genişlənməsi və başqa obyektiv və subyektiv səbəblərdən onların bəziləri nəşrini dayandırıb. Bu mətbuat vasitələri heç bir arxivdə, eləcə də milli kitabxanamızda cəmləşdirilməyib. Amma mən yaradıcılıq səfərlərim zamanı bu qəbildən olan altmış adda qəzet və jurnal nümunələrini toplaya bilmişəm. Xülasə, nəzərinizə çatdırım ki, həmyerlilərimiz təkcə Moskvada iyirmidən çox adda qəzet və jurnal təsis və çap etdirə bilmişlər. Bu dərgilərin əsası professor Tofiq Məliklinin 1988-ci ildə həmfikirləri ilə Rusiya paytaxtında təşkil etdiyi və soydaşlarımızın birləşməsində istisna rol oynayan məşhur "Ocaq" cəmiyyətinin nəzdində" "Çıraq" qəzeti ilə qoyulmuşdur. "Çıraq"ın nüsxələrini, informasiya mühasirəsinə salındığımız vaxtda, gizli formada, Azərbaycan - Qarabağ həqiqətləri ilə təchiz edərək, həmyerlilərimiz öz evlərində ortaya çıxardıb, dostlarımızın, vətənpərvər bacı və qardaşlarımızın vasitəsilə ayrı-ayrı instansiyalara, KİV redaksiyalarına, böyük və kiçik şəhərlərə çatdırırdılar. Sonraki illərdə Moskvada azərbaycan və rus dillərində bir-birinin ardınca "Panorama Azerbaydjana" (1991), "Sooteçestvennik" (1999, "Çrezviçaynoye proisşestviye" qəzetinə əlavə), "Azerros", "Azərbaycan diasporu", "Azerbydjan XXI vek", "Media forum" (jurnal) (2000), "Asudə vaxt", "Millətin qəzeti" (2001), "Azerbaydjanskiy Konqress", "Konqress Azerbaydjantsev" (bülleten), "Son variant" (2002), "Azərbaycanın səsi" (2003), "Azerbaydjanskiy mir" (jurnal), "Salam - press" (2006), Baku (jurnal), "Ya-qrajdanin" (2007), "Yeni səs" (2008), "AMOR" (2010) və b. qəzetlər, jurnallar oxucuların görüşünə gəldilər.

Qeyd edək ki, bu nəşrlər sırasında daha çox fəallıq göstərən "Azerros", "Azerbaydjanskiy Konqress", "Azərbaycan diasporu" qəzetləri və "Media forum", "Baku", "AMOR" jurnallarıdır. Xüsusilə, indi artıq nəşr olunmayan "Azerros" və "Azerbaydjanskiy Konqress" qəzetləri, həftədə bir dəfə 24 səhifədə çıxır və Moskvada yayımlanan bütün kütləvi informasiya vasitələrini mikroskop dəqiqliyi ilə izləyir, Azərbaycan - Qarabağ barədə yazılmış bütün təxribat xarakterli məlumatları araşdırır, arxiv sənədlərinə, tarixə dair elmi əsərlərə istinad edərək onları təkzib və ifşa edirlər.

Rusiya paytaxtında və bölgələrində ermənilər tərəfindən geniş yayımlanan, onların çox güvəndiyi və nüfuzlu saydığı "Noyev Kovçeq" qəzeti məmləkətimizə, xalqımıza, tariximizə və mədəniyyətimizə qarşı öz yalanları, böhtanları ilə hücumda olduğu, öz çirkin saxta cızma-qarası ilə haqqımızda mənfi mövqe yaratmaq istədiyi dövrdə, adını çəkdiyim nəşrlər əsl mübarizəyə, döyüşə qalxdı və qalib gəldilər.

Unutmayaq ki, ermənilərin davamlı təxribatları nəticəsində baş vermiş 44 günlük Vətən müharibəsinə kimi və xalqımız döyüş meydanında Zəfərə nail olduqdan, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Milli Ordumuz tərəfindən erməni quldur dəstələri torpaqlarımızdan birdəfəlik qovulduqdan sonra da, soydaşlarımız belə fədakarlıqla təbliğat işi aparmış, ölkəmiz haqqında doğru, təkzibedilməz məlumatları geniş kütlələrə çatdırmışlar.

Fəxarətlə diqqətə çatdırıram ki, soydaşlarımız paytaxt Moskva şəhərində azərbaycanlıların çoxşaxəli ədəbiyyat dünyasını da yarada biliblər, burda AYB-nin Moskva bölməsi fəaliyyət göstərir. Təşkilatda birləşən, yazıçı və şairlər, diaspor hərəkatında da fəal iştirak etməklə yanaşı, son illərdə rus dilində, eləcə də ana dilimizdə onlarla kitab çap etdirib oxucu ixtiyarına vermişlər. Onlar Rusiyanın mərkəzi mətbuat vasitələri ilə isti münasibətlər qurmuş, bu nəşrlərin səhifələrində klassiklərimizin və müasirlərimizin əsərlərindən nümunələr, bu əsərlərə dair saysız yazılar dərc etdirmişlər. Bu və başqa aktual mövzularla bağlı, inşallah, gələcəkdə ayrıca bir ətraflı məqalə ərsə-araya gətirsəm, düşünürəm, oxucu kütləsi üçün də maraqlı olar.

**Ramin MƏMMƏDOV,**
**yazıçı-publisist, Qaradağ Rayon Ağsaqqallar Şurasının sədri, Birinci Qarabağ müharibəsi veteranı.**

# Arzular çin olduqca

Ölkəmizdən kənarda - başqa məkanlarda yaşayan və təhsil alan, işləyən insanlar, onların fəaliyyəti demək olar ki, millətimizin, vətənimizin təmsil edilməsi deməkdir. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq hər kəs öz xalqını və vətənini müsbət keyfiyyətlər və yüksək səviyyə ilə tanıtmalıdır. Azərbaycançılıq - milli mədəniyyət və qəhrəmanlıq salnaməsi, bilik nümunəsi şövqlə təbliğ və təsdiq olunmalıdır.

Gənc bir alimin təhsil uğurları bu baxımdan bizi də azərbaycanlı kimi sevindirdi və bu sevinci oxucularımızla bölüşmək istədik.

O gənc Şahin Atakişiyevdir. O, 1993-cü ildə rayonumuzun Mirzəbəyli kəndində anadan olmuşdur. Orta təhsilini Mirzəbəyli kənd orta məktəbində almışdır. 2010-cu ildə ali məktəblərə qəbul imtahanlarında 645 bal toplayaraq Qafqaz Universitetinin (hazırda Bakı Mühəndislik Universiteti) kompüter mühəndisliyi (ingiliscə) fakültəsinə qəbul olunmuşdur. 2015-ci ildə bakalavr təhsili almışdır.

İELTS imtahanı verərək lazımi balı toplamış, arzuladığı iki universitetə - Kanada və Böyük Britaniyaya sənəd vermişdir. Hər iki təhsil müəssisəsinə qəbul olmuş, lakin Kanadanın Alberta Universitetini seçmişdir. Şahin bu təhsil ocağını dünyanın ən yaxşı 10 təhsil ocağından biri, həmçinin istədiyi ixtisasın burada çox yüksək səviyyədə tədris olunduğunu öyrəndiyi üçün seçmişdi.

Şahin Atakişiyev 2015-ci ilin sonunda Kanadaya gəlmiş, 2016-cı ilin yanvarından 2018-ci ilin yanvar ayınadək Alberta Universitetində magistr təhsili almışdır. 2019-cu ilin sentyabrından 2024-cü ilin sentyabr ayına kimi doktorantura təhsili alaraq müvafiq dərəcələri əldə etmişdir. Həmçinin o magistr və doktorantura təhsili aldığı dövrdə texnologiya şirkətlərində də işləmişdir.

Şahin Atakişiyev doktoranturada təhsil alarkən elmi rəhbəri doktorantura üzrə tədqiqat üçün qeyd etdiyi mövzu barəsində işləməyi təklif etdi. O, bu tədqiqatın önəmini nəzərə alaraq təklifi qəbul etdi. Tədqiqat işinin əsas məğzi sürücüsüz və ya yarıavtonom maşınların qərarlarını şəffaf şəkildə izah edən süni intellekt arxitekturasının hazırlanması idi. Son vaxlar dünyanın bir sıra inkişaf etmş ölkələrində (ABŞ, Kanada, Yaponiya, İngiltərə, Almaniya, Çin və s.) bu av-



tomobillərin istehsal olunmasına çox böyük maraq yaranmışdır. Bunun səbəbi isə avtonom və yarıavtonom maşınların süni intellekt vasitəsi ilə daha təhlükəsiz qərarlar vermək, insan xətası səbəbindən yaranan qəzaların sayını minimuma endirmə perspektivinin olması və yollarda tıxacların əhəmiyytli dərəcədə azaltma potensialıdır. Yaxın illərə qədər süni intellekt əsaslı sürücüsüz avtomobillərin iştirakı ilə qəzalar baş verəndə hadisədə günahın sürücüsüz avtomobildə, yoxsa qarşı tərəfdə olduğu başa düşülmürdü. Bu problem Şahini də düşündürdüyü üçün o, ciddiliyi və insanlar üçün faydasını nəzərə alaraq doktoranturada məhz bu tədqiqat layihəsi üzrə işləməyə qərar verir. Beş il bu mövzu üzərində işləyərək avtonom avtomobillər üçün izah edilə bilən süni intellekt arxitekturasının nəzəri konseptlərini, bu konseptlərin eksperimental yolla həllini quran Şahin 2024-cü ilin sentyabrında bu mövzu üzrə dissertasiya müdafiə edərək doktorluq dərəcəsini əldə edir.

Doktorluq dissertasiyasının müdafiəsində Kanada, Yaponiya və İspaniyadan olan 6 professordan ibarət komissiya iştirak etmişdi. Onlar Şahinin işlədiyi tədqiqat sahəsi üzrə ekspertlər idi.

Təxminən 3 saat çəkən müdafiə prosesindən sonra komitə işin uğurla tamamlandığını bildirmişdir. Şahin dissertasiyasının orijinallığı və avtonom maşınların daha da şəffaf və təhlükəsiz qərarlar verməsinə dair qatqılarına görə komitə tərəfindən "Ən yaxşı doktor dissertasiyası" mükafatına layiq görülmüşdür. Bu dissertasiya sürücüsüz və yarımavtonom maşınlar üçün daha təhlükəsiz və şəffaf süni intellekt arxitekturası təqdim edir. Bu arxitektura vasitəsi ilə sərnişin qismində maşına müəyyən zamanda nə üçün konkret qərarları qəbul etdiyi (məsələn, sağa, sola dönmə, marşrutu dəyişərək alternativ yolu istifadə etməsi və ya kritik anlardakı qərarları və s.) barədə sorğu verilərsə maşın onları interfeysində sadə dildə izah edər.

Daha dolğun şəkildə qeyd etsək, sürücüsüz avtomobilin istifadəçi interfeysi hərəkət zamanı maşının qərarları ilə bağlı istənilən sualları cavablandıra bilir.

Onu da qeyd edək ki, Şahin 2023-cü ilin noyabrında Kanadada "Akademik Mükəmməllik" mükafatına layiq görülmüşdü. Bu mükafat adətən elmi fəaliyyətdə yüksək nəticələr əldə etmiş magistr və doktorantlara verilir. Gənc Şahinin bu mükafatı 12.000 ABŞ dolları ilə birdəfəlik pul mükafatı ilə müşayiət olunmuşdur.

**(Ardı 7-ci səhifədə).**